**Ziyəddinoğlu, Qaşqay**. İlqar İlyasov: Laçınlılar 28 illik həsrətin sona çatmasının sevincini yaşayırlar / Q. Ziyəddinoğlu // Yeni Azərbaycan. - 2020. - 4 dekabr. - **№ 217**. - S. 6
.

"44 günlük Vətən müharibəsi zamanı əldə edilən qələbənin nəticəsi olaraq 28 ildən çoxdur ki, düşmən tapdağında qalan Laçın rayonu da azad olundu. Azərbaycan Prezidenti, Ali Baş Komandanın dəmir iradəsi, Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində bu gün bütün Azərbaycan xalqı sevinc içindədir. Ona görə ki, Laçında bayrağımızın dalğalanması ilə Azərbaycanın ərazi bütövlüyü bərpa olunub. Təbii ki, bu sevincdən Laçın sakinlərinə də böyük pay düşüb. Laçınlılar 28 illik həsrətin sona çatmasının sevincini yaşayırlar". Bu fikirləri qəzetimizə açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Laçın rayon təşkilatının sədri İlqar İlyasov deyib. Rayon təşkilatının sədrinin sözlərinə görə, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun əldə etdiyi şanlı zəfərin nəticəsi olaraq Laçının işğaldan azad edilməsini bütün laçınlılar xüsusi bayram əhval-ruhiyyəsində qeyd edirlər: "1 dekabrda Laçın rayon sakinlərinin daha sıx məskunlaşdığı Ağcabədi rayonunun Taxta Körpü qəsəbəsində də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu tərəfindən Laçın rayonunun işğaldan azad edilməsi münasibətilə təntənəli tədbir keçirilib. Laçın Rayon İcra Hakimiyyətinin inzibati binasının qarşısında Ulu Öndər Heydər Əliyevin büstünü, rayon şəhidlərinin xatirəsinə qəsəbə ərazisində ucaldılmış Xatirə Kompleksini ziyarət edən laçınlılar daha sonra yüksək əhval-ruhiyyə ilə dövlət bayraqları ilə bəzədilmiş park və küçələrdə bu əlamətdar günü qeyd ediblər".
İ.İlyasov onu da əlavə edib ki, Ağdam, Kəlbəcər və Laçının döyüşsüz təhvil verilməsi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun qazandığı qələbənin nəticəsidir: "30 ilə yaxındır ki, işğal altında olan rayonlarımızın 44 gün müddətində düşmən tapdağından azad olunması, sonrakı 20 gündə işğal altında olan daha 3 rayonun qaytarılması ilə başa çatan Vətən müharibəsi Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq. Bu tarixi hadisəni onlara bəxş etdiyinə görə bütün laçınlılar Ali Baş Komandan İlham Əliyevə minnətdardırlar".
**Qaşqay ZİYƏDDİNOĞLU**